**Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 may 2002-ci il
328-IIQ

"Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli, 328-IIQ nömrəli Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

**"Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı haqqında**

**ƏSASNAMƏ**

1. "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə Azərbaycan Respublikası ilə hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdikləri xidmətlərə görə Azərbaycan Respublikasının və xarici ölkələrin hərbi qulluqçuları və digər şəxslər təltif edilirlər.

2. "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Sərhəddə fərqlənməyə görə" medalından sonra taxılır.

"Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli, 328-IIQ nömrəli Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

**"Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının**

**TƏSVİRİ**

"Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı *mərkəzində aypara və səkkizguşəli ulduz olan* milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş qızılı rəngli, dairəvi formalı, diametri *36 mm* olan lövhədən ibarətdir.[1]

Medalın ön tərəfində üzərində səkkizguşəli ulduz yerləşdirilmiş qalxan təsvir edilmişdir.

Qalxandan yuxarıda çevrə boyunca "Azərbaycan Respublikası", ulduzun ortasında "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" sözləri yazılmış, qalxandan aşağıda iki çarpazlaşdırılmış qılınc, qalxanın sol tərəfində dəfnə yarpağından, sağ tərəfində isə palıd yarpağından çələnglər yerləşdirilmişdir. Çevrənin daxili və ulduzun xarici konturlarının arasında relyefli şüalar vardır.

Ulduz ağ, qılınclar gümüşü rəngdə, qalan təsvirlər isə qızılı rəngdədir.

Arxa tərəfi hamar səthlidir*, orta hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur*.[2]

*Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentlə halqa və ilgək vasitəsilə birləşdirilir. Tünd qırmızı rəngli xara lentin kənarlarından mərkəzinə doğru ardıcıl olaraq 1 mm enində qızılı rəngli, 3 mm enində göy və yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı rəngli təbəqə bərkidilir.*[3]

Medala paltara bərkidilmək üçün elementi olan, *eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm* ölçülü qəlib əlavə olunur.[4]

**"HƏRBİ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ XİDMƏTLƏRƏ GÖRƏ" medalı**



## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 30 sentyabr 2013-cü il tarixli **733-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1252**)


## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 30 sentyabr 2013-cü il tarixli **733-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1252**) ilə birinci hissədə "**milli**" sözündən əvvəl "**mərkəzində aypara və səkkizguşəli ulduz olan**" sözləri əlavə edilmişdir, "**35 mm**" sözləri "**36 mm**" sözləri ilə əvəz edilmişdir.

[2] 30 sentyabr 2013-cü il tarixli **733-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1252**) ilə beşinci hissədə "**səthlidir**" sözündən sonra "**, orta hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur**" sözləri əlavə edilmişdir.

[3] 30 sentyabr 2013-cü il tarixli **733-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1252**) ilə altıncı hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə yaşıl rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində qızılı rəngli, 3 mm enində göy və qırmızı rəngli şaquli zolaqlar təsvir edilmişdir.~~

[4] 30 sentyabr 2013-cü il tarixli **733-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti, 28 noyabr 2013-cü il, 261 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 11, maddə 1252**) ilə yeddinci hissədə "**üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm**" sözləri "**eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm**" sözləri ilə əvəz edilmişdir.